

## Dövlət müstəqilliyimiz daimidir, əbədidir, dönməzdir!

25







Bu gün Azərbaycanın dövlət müstəqilliyinin bərpasının 25-ci ili tamam olur. XX əsrin sonlarına doğru ikinci dəfə öz istiqlalına qovuşmuş Azərbaycan xalqı üçün dövlət müstəqilliyinin bərpası böyük tarixi hadisədir. Elə buna görə də ulu öndər Heydər Əliyev bu istiqlalı xalqımızın iftixarı və qürur mənbəyi adlandırmışdı. Müstəqillik həm də bizim üçün ona görə qiymətlidir ki, Azərbaycan azadlığını asanlıqla əldə etməyib, respublikamızı bu müstəqilliyə, azadlığa aparan yollar hamar olmayıb. Lakin bu gün Azərbaycan digər ölkələrdən fərqli olaraq 25 il öncə qazandığı azadlığının ildönümünü daha böyük nailiyyətlər və xoş əhvali-ruhiyyə ilə qeyd edir. Çünki Azərbaycan yalnız sözdə deyil, sözün əsl mənasında müstəqil dövlətdir.

# İnkişafın Daşkəsən nümunəsi

*Dağlar diyarında qazanılan möhtəşəm nailiyyətlər və həyata keçirilən genişmiqyaslı quruculuq işləri müstəqilliyimizin bəhrəsidir*













### Azadlığımızın ən mühüm uğurlarından biri ölkəmizin inkişafıdır

25 il insan ömrü üçün böyük zaman kəsiyidir. Lakin dövlət və tarix üçün böyük dövr deyil. Bizim üçün son dərəcə sevindiricidir ki, tarix üçün uzun olmayan bu zaman müddətində Azərbaycan çox böyük inkişaf yolu keçib, cəmiyyət həyatının bütün sahələrində mükəmməl islahatlar həyata keçirilib. 7 il əvvəl ölkəmizdə keçid dövrü tam başa çatıb. Bu gün beynəlxalq aləmdə özünün layiqli yerini tutan Azərbaycan həm də ayrı-ayrı ölkələrin sosial-iqtisadi inkişaf yolunda örnək götürdüyü bir dövlətdir.

Prezident İlham Əliyevin qarşıya qoyduğu başlıca məqsəd Azərbaycanı inkişaf etmiş dövlətlər səviyyəsinə çatdırmaqdır. Son 13 ildə həyata keçirilən məqsədyönlü siyasət sayəsində Azərbaycanın bütün bölgələri yeni inkişaf mərhələsinə qədəm qoyub. Ölkəmizin günü-gündən yüksələn, modernləşən ünvanlarından biri də öz tərəqqi tempi ilə seçilən Daşkəsən rayonudur. Daşkəsən Azərbaycan SSR-də inzibati rayon kimi 1930-cu ildə təşkil edilib. Ərazisi 1046 kv.km, əhalisi 35 min nəfərə yaxındır. Rayonda 1 şəhər, 5 qəsəbə və 43 kənd var. Hinaldağdan və Qoşqar dağından məğrurluqla boylanan uca qarlı zirvələri, bumbuz, gur sulu çayları, təmiz, saf havası, yaşıllığa bürünən dilbər guşəsi, ümumiyyətlə, ilin bütün fəsillərində təbiətinin əsrarəngiz mənzərəsi ilə insanın ruhunu oxşayan Daşkəsənin inkişafı doğrudan da qürurvericidir. Düşmənin qarşısında hər zaman mətinliklə dayanan, sıldırımlı qayaları ilə alınmaz qalaya çevrilən bu dağlar diyarı son illər həm də möhtəşəm quruculuq meydanına çevrilib. İndi Daşkəsənə ayaq basan hər kəs elə ilk addımda rayonun son illərdə keçdiyi inkişaf yolunun, quruculuğun və abadlığın şahidi olur.

### Yeni ünvanlar rayonun simasını dəyişib

Ucqar dağ rayonlarından olan Daşkəsənin yaşayış məntəqələrinə təbii qazın verilməsi, heç vaxt şose yolunun olmadığı kəndlərə asfalt yolun çəkilməsi, dağ çaylarının üzərində körpülərin salınması müstəqilliyimizin bəhrələridir. Hansı ki 70 illik sovet hakimiyyəti illərində bunların heç biri edilməmişdi. Təkcə son 12-13 ildə rayon ərazisində olduqca mühüm layihələr həyata keçirilib, möhtəşəm tikililərin təməli qoyularaq uğurla başa çatdırılıb. İstifadəyə verilən və yenidən qurulan səhiyyə və təhsil müəssisələri, uşaq bağçaları, yollar, yol ötürücüləri, idman qurğuları, parklar, inzibati binalar rayonun simasını tamamilə dəyişib. Bu dövrdə həm ayrı-ayrı dövlət proqramlarından, həm yaradılmış azad sahibkarlıq mühitindən irəli gələrək rayonda çoxsaylı xidmət və istehsal sahələri fəaliyyətə başlayıb.

Rayonda son illərdə geniş vüsət alan yenidənqurma və abadlıq işləri Daşkəsən şəhərinin timsalında aydın görünür. Şəhərin kanalizasiya, küçələrinin işıqlandırma sistemləri yenidən qurulub, bütün yaşayış binalarında bərpa-gücləndirmə işləri aparılıb, mədəniyyət evinin, yaşayış binalarının dam örtükləri təmir edilib, Bayraq meydanı yaradılıb.

Daşkəsəndə Azərbaycanın müstəqilliyinin təmin olunmasında, dövlətçiliyimizin möhkəm əsaslar üzərində qurulmasında və respublikamızın inkişafında müstəsna xidmətləri olan ümummilli lider Heydər Əliyevin xatirəsi də əbədiləşdirilib. Ümummilli liderin adını daşıyan park daşkəsənlilərin ən sevimli istirahət yerlərindən biridir. Daşkəsən şəhərinin mərkəzində isə ulu öndərin abidəsi ucaldılıb. 2014-cü il oktyabrın 17-də Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Daşkəsəndə Heydər Əliyev Mərkəzinin açılışında iştirak ediblər. Azərbaycanın Heydər Əliyev irsinə əsaslanan davamlı inkişaf konsepsiyasının mahiyyətinin aydın şəkildə öyrənilməsində, ulu öndərin irsinin gənc və böyüməkdə olan nəslə çatdırılması işində mühüm rol oynayan bu mərkəz həm də Daşkəsən şəhərinin görkəminə xüsusi gözəllik verir. Mərkəzin açılışında iştirak edən dövlət başçısı İlham Əliyev dahi şəxsiyyətin Azərbaycan xalqı, dövləti qarşısındakı xidmətlərinin böyüklüyündən geniş bəhs edərək, bu irsin öyrənilməsinin və gələcək nəsillərə çatdırılmasının vacibliyini qeyd edib.

Bunlardan əlavə son illərdə Daşkəsəndə 80 çarpayılıq rayon mərkəzi xəstəxanası, əlil və şəhid ailələri üçün ümumilikdə 32 mənzilli 2, qəzalı vəziyyətində olan çoxmənzilli yaşayış binalarının sakinləri üçün 48 mənzilli 3 yaşayış binası, 168 şagird yerlik 13 ümumtəhsil məktəb binası inşa olunub, 3470 şagird yerlik 10 məktəb binası və 200 yerlik 3 körpələr evi - uşaq bağçası əsaslı təmir edilib. Rayon icra hakimiyyəti üçün yeni inzibati bina, statistika idarəsinin inzibati binası, Gənclərin Təlim və İstirahət Mərkəzi, avtovağzal kompleksi tikilib, mərkəzi kitabxana təmir edilib, Daşkəsən şəhərində Heydər Əliyev prospektinə, Heydər Əliyev meydanına və bəzi küçələrə yeni asfalt örtüyü salınıb, bir sıra müəssisələrdə əsaslı təmir işləri aparılıb. Bütün bunlar onu göstərir ki, Azərbaycanda həyata keçirilən inkişaf və quruculuq siyasəti Daşkəsəndə uğurla reallaşır. Yeni istifadəyə verilən hər bir ünvan bütövlükdə həm rayonun, həm də Daşkəsən şəhərinin simasını gözəlləşdirib.

### Uğurların müəllifi Prezidentdir

Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasət ölkəmizin müstəqilliyini daha da möhkəmləndirdiyi kimi hər bir şəhərimizi, rayonumuzu da inkişaf yoluna çıxarıb. Odur ki, Daşkəsənin də inkişafından danışarkən qeyd etməliyik ki, bu tərəqqinin müəllifi Prezident İlham Əliyevdir. Qazanılan hər bir nailiyyətə dövlət başçısının göstərdiyi böyük diqqət və qayğı sayəsində nail olunub.

Ölkə rəhbəri Daşkəsənə iki dəfə səfər edib. Bu səfərlərin hər biri rayonun tarixində silinməz iz qoyub, onun inkişafına yeni təkan verib. Birinci dəfə 2006-cı il oktyabrın 31-də etdiyi səfər zamanı dövlət başçısı ümummilli lider Heydər Əliyevin abidəsinin, Heydər Əliyev Muzeyinin, ümumi uzunluğu 47,4 km. olan Gəncə-Daşkəsən-Xoşbulaq avtomobil yolunun açılışı, Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün tikilmiş yaşayış binasının istifadəyə verilməsi mərasimlərində iştirak edib, həmçinin şəhid Anar Mürsəlov adına şəhər 2 saylı orta məktəbə gedib, "Daşkəsən Filizsaflaşdırma" ASC-nin fəaliyyəti ilə tanış olub.

2014-cü il oktyabrın 17-də etdiyi səfər zamanı isə Prezident İlham Əliyev Daşkəsən şəhərində Heydər Əliyev Mərkəzinin, yeni avtovağzal kompleksinin və Gənclərin Təlim və İstirahət Mərkəzinin açılışında iştirak edib, rayon icra hakimiyyətinin yeni binasında yaradılan şəraitlə tanış olub.

Bu səfərdən sonra Prezident İlham Əliyev Daşkəsən şəhərində abadlıq-quruculuq işlərinin davam etdirilməsini, habelə "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nda rayon üzrə müəyyən olunmuş tədbirlərin həyata keçirilməsini təmin etmək məqsədilə 2 milyon manat ayrılması barədə sərəncam imzalayıb.

Xatırladaq ki, Prezident İlham Əliyevin bundan əvvəl, 2012-ci il aprelin 2-də imzaladığı sərəncamla üç min nəfər əhalinin yaşadığı 13 yaşayış məntəqəsini birləşdirən Zağalı-Kollu-Çıraqlı avtomobil yolunun tikintisi məqsədi ilə 2012-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Prezidentinin Ehtiyat Fondundan Daşkəsən Rayon İcra Hakimiyyətinə ilkin olaraq 3 milyon manat ayrılıb. Prezident İlham Əliyevin 10 yanvar 2013-cü il tarixli sərəncamı ilə isə Daşkəsən rayonunun sosial-iqtisadi inkişafının sürətləndirilməsi məqsədi ilə rayon icra hakimiyyətinə Prezidentin Ehtiyat Fondundan 2 milyon manat ayrılıb. Beləliklə, son illərdə Daşkəsənin sosial-iqtisadi inkişafının sürətləndirilməsi məqsədilə Prezidentin Ehtiyat Fondundan 4 milyon manat ayrılıb. Bütün bunların nəticəsi olaraq Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafına dair dövlət proqramları Daşkəsən rayonunda da uğurla reallaşır.

"Yeni Daşkəsən" ideyası da məhz bu yüksəlişdən və Prezidentin yürütdüyü inkişaf siyasətindən qaynaqlanır. Qeyd edək ki, rayonun bütün daxili yollarının, körpülərin əsaslı təmiri üzrə Daşkəsən RİH tərəfindən Nazirlər Kabinetinə kompleks layihə təklifləri işlənib təqdim olunub. 3300 nəfər əhalinin yaşadığı 9 yaşayış məntəqəsini birləşdirən 25 kilometr uzunluğunda Daşkəsən - Əmirvar - Qabaqtəpə avtomobil yolunun tikintisi üzrə müvafiq sənədlər aidiyyəti üzrə qurumlara təqdim edilib və bu layihənin həyata keçirilməsi "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"na daxil edilib.

Bununla bağlı Daşkəsən Rayon İcra Hakimiyyətinin başçısı Əhəd Abıyevin fikirlərini öyrəndik. O dedi: *"Bu gün Daşkəsən rayonu özünün dinamik inkişaf dövrünü yaşayır. Regionlarımızın sosial-iqtisadi inkişafına dair üçüncü Dövlət Proqramında rayonumuzla bağlı tədbirlərin yüksək səviyyədə yerinə yetirilməsi bunu əminliklə söyləməyə əsas verir. Cari ilin ötən dövrünün sosial-iqtisadi göstəriciləri fonunda bu fikri də inamla söyləyə bilərik ki, 2016-cı il Azərbaycanın təbii sərvətlərlə zəngin rayonu olan Daşkəsənin tarixinə sürətli inkişaf dövrü kimi yazılacaq. Bu gün həyata keçirilməkdə olan "Yeni Daşkəsən" layihəsi də cənab Prezidentin yürütdüyü inkişaf siyasətindən qaynaqlanır. Bu layihə bütün rayon ictimaiyyətinin dərin razılığı ilə qarşılanır, bəyənilir və dəstəklənir.*

*Bu layihə həm də ondan xəbər verir ki, dövlət dağlar diyarının tərəqqisi üçün hər cür qayğı və kömək göstərir. İndi 25-ci ildönümünü qeyd etdiyimiz müstəqilliyimizin ən mühüm nailiyyətlərindən biri odur ki, biz öz inkişaf yolumuzu müəyyən etmişik və bu yolla inamla gedirik. İndi bütün sərvətlərimiz özümüzə məxsusdur. İndi hər bir maddi nemətimiz xalqımıza məxsusdur. Dövlət başçısı möhtərəm İlham Əliyev bütün mövcud imkanlarımızı müdrikliklə, qətiyyətlə, böyük uzaqgörənliklə ölkəmizin inkişafına yönəldir. Məhz dövlət başçısının uğurlu siyasəti nəticəsində Daşkəsən də inkişaf edir, özünəməxsus inkişaf tempi ilə fərqlənir".*

### İqtisadi müstəqilliymizin təmin olunmasına mühüm töhfə

Təqdirəlayiq haldır ki, Daşkəsəni Azərbaycanda dağ rayonları arasında öncüllər sırasına çıxaran əsas cəhətlərdən biri sosial-iqtisadi sahədə əldə olunan uğurlardır. Respublikamızda aparılan düşünülmüş sosial-iqtisadi siyasət sayəsində bu rayonun da hərtərəfli inkişafı üçün böyük işlər görülüb və bu işlər hazırda da uğurla davam etdirilir. Həyata keçirilən məqsədyönlü siyasət və dövlət qayğısı nəticəsində Daşkəsəndə müasir standartlara cavab verən məhsul istehsal edən müəssisələr yaradılıb.

Odur ki, əsasən aqrar rayon olmasına baxmayaraq Daşkəsənin son illərdə əldə etdiyi sosial-iqtisadi göstəricilər rayonun inkişafının müsbət dinamikasından xəbər verir. Respublikamızın digər rayonlarında olduğu kimi, Daşkəsəndə də bu ilin ötən dövründə iqtisadi və sosial sahədə müsbət nəticələr əldə olunub. Xüsusən iqtisadiyyatın əsas sahələrində istehsal olunmuş məhsul və xidmətlərin ümumi həcmi əvvəlki ilə nisbətən müxtəlif sahələr üzrə xeyli artıb. Məsələn, ümumi məhsul buraxılışı 2003-cü ilə nisbətdə 2016-cı ilin ötən dövrü ərzində 2,4 dəfə, kənd təsərrüfatının ümumi məhsulu 1,2 dəfə, sənaye məhsulunun həcmi 2,2 dəfə çoxalıb. Təkcə bu il kənd təsərrüfatı istehsalçılarına 647,9 min manat subsidiya, Sahibkarlığa Kömək Milli Fondu vasitəsi ilə 257 sahibkara 4 mln. 330 min manat güzəştli kredit verilib. Bu kreditlər hesabına 658 yeni iş yeri yaradılıb. Ümumiyyətlə isə, 2003-2016-cı il ərzində rayonda 3129-u daimi olmaqla 4935 yeni iş yeri açılıb.

Məlum olduğu kimi, hər bir dövlətin iqtisadi qüdrəti dağ-mədən sənayesinin inkişafı ilə də sıx bağlıdır. Dünya dağmədən sənayesinin hazırkı inkişaf tendensiyaları fonunda respublikamızın malik olduğu zəngin mineral-xammal potensialı ölkədə dağ-mədən sənayesinin inkişafı üçün böyük perspektivlər açır. Əminliklə demək olar ki, respublikamızda iqtisadiyyatımızın tələbatını tamamilə ödəyə biləcək mineral xammal bazası mövcuddur. Bu sırada Daşkəsən rayonu filizi ilə xüsusilə seçilir. Lakin SSRİ dövründə Daşkəsən filizi digər ölkələr üçün bir növ mineral-xammal bazası rolunu oynayırdı. Burada çıxarılan dəmir filizləri əsasən Gürcüstanın Rustavi metallurgiya zavoduna göndərilirdi.

Bu gün isə Azərbaycan öz təbii ehtiyatlarının da tam sahibidir. Artıq "Daşkəsən Filizsaflaşdırma" kombinatının fəaliyyəti bərpa olunub. Burada hasil olunan filiz ölkəmizdə metallurgiyanın və bütövlükdə sənayenin inkişafında, ən əsası iqtisadi müstəqlliyiyimizin təmin olunmasında mühüm rol oynayır. Xatırladaq ki, Daşkəsən yataqlarında təsdiq edilmiş 270 milyon ton filiz ehtiyatı var. Filizin tərkibinin orta hesabla 40 faizi dəmirdir. Bu da 100 milyon ton dəmir ehtiyatı deməkdir. Çıxarılma nisbətini və ehtiyatların təbii artım əmsalını nəzərə almaqla, ölkənin 80-100 illik dəmir ehtiyatı var.

Daşkəsən qızıl ehtiyatları ilə də zəngindir. Azərbaycan dövlət müstəqilliyi əldə etdikdən sonra geoloqların səyi ilə Daşkəsən rayonunda aşkar olunub qiymətləndirilmiş Çovdar qızıl yatağında istismar artıq başlanıb. Prezident İlham Əliyevin 11 fevral 2015-ci il tarixli sərəncamı ilə tərkibinə Çovdar qızıl zavodunun daxil olduğu "AzerGold" Qapalı Səhmdar Cəmiyyəti yaradılıb.

### Qarşıya qoyulan vəzifələrin icrasında müsbət nəticələr əldə olunub

İlin ötən dövründə rayonda təmir-tikinti və abadlıq işləri də görülüb. Hazırda Quşçu həkim məntəqəsində, Zinzahal kənd klubunda və Əhmədli kənd mədəniyyət evində təmir işləri aparılır. O cümlədən yeni yaradılmış rayon kənd təsərrüfatı idarəsinin inzibati binasında son tamamlama işləri görülür. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin sifarişi əsasında Daşkəsən şəhərində, Daşkəsən qəsəbəsində və Qabaqtəpə kəndində Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün fərdi yaşayış evlərinin tikintisinə başlanılıb və hazırda tikinti işləri davam etdirilir. Bundan başqa, Daşkəsən şəhərində Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün yeni 36 mənzilli yaşayış binasının tikintisi üçün torpaq sahəsi ayrılıb, tezliklə həmin binanın tikintisinə də başlanılacaq.

Cari ilin ötən dövründə əhalinin elektrik enerjisi, qaz, istilik, içməli su ilə təchizatı vəziyyətinin yaxşılaşdırılması məqsədilə daxili imkanlar hesabına təmir-bərpa və yenidənqurma işləri həyata keçirilib. Alunitdağ qəsəbəsində 356 kv-luq elektrik yarımstansiyası istifadəyə verilib. Rayon elektrik şəbəkəsi tərəfindən 22 ədəd transformator cari təmir edilib, 11,7 km. elektrikverici xətlərdə təmir işləri aparılıb,156 ədəd dayaq, köhnə naqillər yenisi ilə əvəz olunub. Daşkəsən şəhəri üzrə 0,4 kv-luq hava elektrikverici xətlərinin müasir kabellərlə əvəz olunması işləri isə davam edir.

Məlum olduğu kimi, ötən ilin may ayında Azərbaycan hökuməti ilə İslam İnkişaf Bankı tərəfindən maliyyələşən "Daşkəsən şəhərinin su və kanalizasiya sistemlərinin yenidən qurulması" layihəsinə başlanılıb. Layihənin bu ilin sonuna kimi başa çatdırılması nəzərdə tutulub. Bunun nəticəsində Daşkəsən şəhərinin sakinləri fasiləsiz şəkildə ekoloji cəhətdən təmiz su ilə təmin olunacaqlar.

Ümumiyyətlə, həm bu ilin ötən dövrünün, həm də son illərin sosial-iqtisadi yekunlarının təhlili göstərir ki, Daşkəsəndə iqtisadiyyatın davamlı inkişafı təmin edilib, abadlıq-quruculuq işləri geniş miqyasda həyata keçirilib, qarşıya qoyulan vəzifələrin icrası istiqamətində uğurlu nəticələr əldə olunub. Azərbaycanın inkişaf dinamikasına uyğun olaraq rayonun siması büsbütün dəyişib. Daşkəsənin hər bir sakini Prezident İlham Əliyevin rəhbərliyi altında qazanılan uğurların bəhrəsini öz gündəlik həyatında hiss edir, ölkədəki yüksəliş və tərəqqi xəttini ürəkdən dəstəkləyir. Eyni zamanda rayonun daha da inkişafı, həyata keçirilən quruculuq işlərinin uğurla davam etdirilməsi, rayon sakinlərinin daha yaxşı yaşamaları qarşıda mühüm vəzifələr kimi durur. Əminliklə deyə bilərik ki, bu vəzifələrin yerinə yetirilməsi, Prezident İlham Əliyevin müəyyən etdiyi kursun inamla davam etdirilməsi üçün rayon rəhbərliyi və ictimaiyyəti bundan sonra da böyük əzm göstərəcək, üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirəcək, dövlətçiliyimizin və müstəqilliyimizin möhkəmləndirilməsi, iqtisadiyyatımızın gücləndirilməsi istiqamətində bütün imkanlarını səfərbər edəcəklər.

Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasət ölkəmizin müstəqilliyini daha da möhkəmləndirdiyi kimi hər bir şəhər və rayonu inkişaf yoluna çıxarıb. Bu mənada dağlar diyarı Daşkəsəndə qazanılan nailiyyətlər, həyata keçirilən genişmiqyaslı quruculuq işləri müstəqilliyimizin bəhrəsidir. Daşkəsənin inkişafı timsalında onu da deyə bilərik ki, əgər Azərbaycan 25 il öncə azadlığına digər sovet respublikaları ilə müqayisədə daha çox çətinliklə nail olmuşdusa, müstəqilliyinin 25-ci ildönümünü daha böyük nailiyyətlər və daha xoş əhvali-ruhiyyə ilə qarşılayır. Çünki Azərbaycan sözün əsl mənasında müstəqil dövlətdir. Həyata keçirilən uğurlu dövlət siyasəti nəticəsində isə müstəqilliyimiz gündən-günə daha da möhkəmlənir və güclənir.








**Rəşad CƏFƏRLİ,**
**"Azərbaycan"**